# RƏSUL HƏMZƏTOVUN 100 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ KİTAB NƏŞR OLUNUB

***Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasının Fəxri oxucusu, yazıçı-publisist, politoloq, çoxsaylı tədqiqat əsərlərinin və kitabların müəllifi Reyhan Mirzəzadə dünyaşöhrətli şair Rəsul Həmzətovun anadan olmasının 100 illiyi ilə əlaqədar «Milyonların nəğməkarı — Rəsul Həmzətov» adlı kitabını yazıb.***

Reyhan Mirzəzadə xalqlar arası ədəbi-mədəni əlaqələrə dair çoxsaylı elmi-publisistik məqalə və kitabların müəllifidir. Onların arasında «Rus ədəbiyyatı qəlbimin işığında», «Bəşəri zəkanın rus dahiləri», «Böyük şair — vətəndaş», «Pedaqoji fikir tarixindən», «Zəka məşəli», «Fikrin böyük sənətkarı», «Bəşəriyyətə şölə saçan teatr günəşi» və s. kitablar var.

Rəsul Həmzətovun anadan olmasının 100 illiyi ilə əlaqədar dünyanın bir çox ölkələrində şairin yubileyinə həsr olunmuş silsilə tədbirlər həyata keçirilir. Rusiya Federasiyasında 2023-cü il «Rəsul Həmzətov İli» elan olunub. R.Həmzətovun yubileyi Azərbaycanda da qeyd olunacaq.

Oxuculara təqdim olunan «Milyonların nəğməkarı — Rəsul Həmzətov» kitabda Rusiya Federasiyasının Dağıstan Respublikasında yaşayıb-yaratmış və dünya ədəbiyyatı, poeziyası tarixinə misilsiz töhfələr bəxş etmiş avarəsilli şair Rəsul Həmzətovun bəşəri yaradıcılığından bəhs olunur. Kitab ön söz və «Rəsul Həmzətovun həzin və odlu misralarından», «Rəsul Həmzətov. Dağıstanın üç sərvəti», «Rəsul Həmzətovun həyatı fotoşəkillərdə», «Rəsul Həmzətov. Ata və ana. Od və Su», «Rəsul Həmzətovun unudulmaz şeirlərindən» bölmələrdən ibarətdir.

Kitabda nəşr olunmamış faktlar və yazıçının ötən əsrdə qəzetlərdə dərc olunmuş şeirləri toplanmışdır. Geniş ictimaiyyətə məlum olmayan faktlar yeni kitabda öz əksini tapmışdır. Müəllif qeyd edir ki, şair dostluğa çox böyük dəyər verir. Kitabda R.Həmzətovun «Dostları qoruyun» («Берегите друзей») şeiri yer almışdır. Burada R.Həmzətovun şeirləri haqqında tanınmış bəstəkar Aleksandra Paxmutovanın sözləri də verilir: «Onun şeirləri ürəklərimizdə musiqi yaradır. Çingiz Aytmatov etiraf etmişdir ki, Rəsul Həmzətovun şeirlərini oxuyarkən gözlənilmədən ürəkdə musiqi yaranır. Bu həqiqətən belədir».

Kitabda olan məlumata görə Rəsul Həmzətov iki dəfə Hiroşima şəhərində olub. Onun «Hiroşima zınqrovu» poemasında atom bombasının cəhənnəmi təsvir edilir. Müəllif qeyd edir ki, Rəsul Həmzətov nə haqda yazmağından asılı olmayaraq o, həmişə səmimiliyi, mübarizliyi, vicdanlığı və insanseverliyi ilə fərqlənir.

Kitabda Rəsul Həmzətovun Azərbaycanla və Azərbaycan şairləri ilə bağlı söylədiyi fikirlər gətirmişdir. Həmçinin kitabda Rəsul Həmzətov haqqında tanınmış şairlər Robert Rojdestvenski, Mixail Svetlov, Korney Çukovski, Sergey Mixalkov, Eduardas Mejelaytis, Oljas Suleymenov və b. sitatları verilir.

Rəsul Həmzətov Bakını sevə-sevə yazırdı:

*Salam əziz Bakı, mehriban Bakı,*
*Səninlə görüşmək nə xoşdur mənə.*
*Doğma Xəzərin də duyaraq səni*
*Qardaşlıq nəğməsi oxuyur yenə...*

R.Mirzəzadə vurğulayır: «Doğru deyirlər ki, şairin şeir rübabı incə könüllərin həmdəmi, lal duyğulara qanad verən bir qüvvədir. «Canlı klassik», «Qafqaz dağlarının qartal oğlu», «Milyonların nəğməkarı» və neçə-neçə biri-birindən dəyərli epitetlər Dağıstanın xalq şairi Rəsul Həmzətova çox yaraşır».

Kitabda R.Həmzətovun vaxtı ilə öz dilindən deyilmiş sözlər diqqət çəkir: «Mənim xalqımı Azərbaycanla bağlayan tellər çoxdur — tarix, mədəniyyət, ənənələr və məişət. Biz hamımız bir kökdən qaynaqlanmışıq. Hələ gənclik illərində mən Azərbaycana sevgi hissləri ilə dolu şeirlər yazmışam. İlk dəfə məni Azərbaycanla Nizami, Füzuli, Nəsimi, Vaqif, Sabir tanış edibdir...»

Kitabın ilk bölməsində müəllif şairin ölməz misralarını oxucuların diqqətinə çatdırır, «Dağlar ölkəsi» və «Çoxdilli» adı ilə şöhrət tapmış bu gözəl diyarın adət-ənənələri haqqında, Dağıstan xalqları arasında yayılmış qəribə əfsanə haqqında məlumat verir. Müəllif bildirir ki, dağıstanlılar üçün Azərbaycan, azərbaycanlılar üçün isə Dağıstan həmişə doğma və əziz olmuşdur. Kitabda 11 yaşından yaradıcılığa başlayan şairin xatirələri maraq doğurur. Burada onun nadir istedadı, ictimai-siyasi fəaliyyəti, yurdumuza



məhəbbəti, uzun illər Azərbaycanın ziyalıları, şairləri ilə dostluq, qardaşlıq əlaqələri haqqında, həyatının çətinliklərdən keçən keşməkeşli məqamlarından da ətraflı məlumatlar verilir. Rəsul Həmzətov öz müəllimi kimi rəğbət bəslədiyi Səməd Vurğun haqqında xüsusilə qeyd edir ki, onun poeziya ocağı xalqın qəlbinin odu ilə yanır və onu heç kəs söndürə bilməz.

Kitabın birinci bölməsində yazıçı-publisist Reyhan Mirzəzadə Ulu Öndər Heydər Əliyevin xalq şairi Rəsul Həmzətovun 75 və 80 illik yubileylərindəki təbriklərini oxucuların diqqətinə çatdırır.

Kitabın ikinci və dördüncü bölmələrində Vilayət Rüstəmzadənin tərcüməsində Rəsul Həmzətovun «Mənim Dağıstanım» ikinci kitabından «Dağıstanın üç sərvəti» və «Ata və Ana. Od və Su» adlı parçalar təqdim olunur.

Kitabın üçüncü «Rəsul Həmzətovun həyatı fotoşəkillərdə» bölməsində tarixi fotoşəkillər verilib.

Kitabın son bölməsində Rəsul Həmzətovun unudulmaz şeirləri Əhməd Cəmilin və Tofiq Bayramın tərcüməsində oxuculara təqdim olunur. Kitabda həmçinin musiqisi Qulu Əsgərova aid «Əziz dostum» şeiri də yer alır.

Yazıçı-pulisist qeyd edir ki, Rəsul Həmzətovun bütün yaradıcılığı — kiçik şeirlərdən tutmuş böyük poemalaradək, xırda qeydlərdən başlamış əzəmətli «Mənim Dağıstanım»adək... bu həqiqət üzərində ucalan məğrur bir kaşanədir.

Kitaba ön sözü yazıçı-publisist Zöhrə Əsgərova yazıb.

Z.Əsgərova ön sözdə Rəsul Həmzətovun aşağıdakı sözlərini qeyd edir: «Mən xalqımın dilində avar dilində yazıram və qonşu kənddə məni başa düşmürlər. Rus dilinə görə mənim yaradıcılığım bütün dünyada tanınır».

Kitabın sonuncu bölməsində Rəsul Həmzətovun Azərbaycandakı qəzetlərdə dərc olunan və müxtəlif mövzuları əhatə edən iyirmi üç şeiri toplanmışdır. Burada dostluğa həsr olunmuş «Dostluq», «Dostluq haqqında nəğmə», «Dostumsan əgər...», «Dost kədəri» və «Əziz dostum» şeirləri diqqəti daha çox cəlb edir. Şair «Dağıstanım» şeirində doğma yurdunu tərənnüm edir. Şeir bu sözlərlə bitir:

*Sınadın həmişə bizi zəhmətdə,*
*Oldu qismətimiz cəsur bir həyat.*
*«Söz, atdan üstündür, - dedin - qiymətdə».*
*Dağlılar boş yerə yəhərləməz at!*

*Lakin neçə-neçə uzaq, yad paytaxt,*
*Neçə yad məmləkət gəzib gələrkən, -*
*Vüqarlı dağlarda suların şaqraq*
*Səsinə mümkünmü səs verməyim mən?*

Müəllif kitabı Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminə hədiyyə edib.

Kitabın elektron variantı aşağıdakı keçiddə yerləşdirilib:

*https://drive.google.com/file/d/1PWL-fRSkuRvwHDLSQpr2SwB7zZWHsnjR/view*










*Təranə HEYDƏROVA,*
**Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin şöbə müdiri.**